**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**BİLLURƏ ASLAN QIZI ASLANOVA**

# AZƏRBAYCANDA TELEVİZİYANIN İNKİŞAF MƏRHƏLƏLƏRİ

**İxtisas: 5720.01 – Jurnalistika**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2015**

Dissertasiya Bakı Dövlət Universitetinin Televiziya və radiojurnalistikası kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **Yalçın Mustafa oğlu ƏLİZADƏ**
*filologiya üzrə fəlsəfə doktoru, professor*

**Rəsmi opponentlər:** **Nəsir Abbas oğlu ƏHMƏDLİ**
*filologiya elmləri doktoru, professor*

**Rövşən Raqif oğlu MƏMMƏDOV**
*filologiya üzrə fəlsəfə doktoru*

**Aparıcı müəssisə:** **Bakı Slavyan Universitetinin yeni media və kommunikasiya texnologiyaları kafedrası**

Müdafiə «_25___» ___12__ 2015-ci il saat «___»-da Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini keçirən D.02.181 Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» ____________ 2015-ci ildə göndərilmişdir.

**D.02.181 Dissertasiya Şurasının elmi katibi, filologiya elmləri doktoru, professor:** **T.H.HÜSEYNOV**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Kütləvi informasiya vasitələri içərisində hegemonluğu ilə seçilən televiziya hər gün mənzillərimizin qonağı olur. Bu daimi qonaqla ünsiyyət çağdaş dövrümüzün ayrılmaz tərkib hissəsinə çevrilib. İnformasiya cəmiyyətinin əsas göstəricilərindən olan televiziya öz işini uğurla həyata keçirərək hər anın hakimi ola bilmək imkanını nümayiş etdirir. Elə buna görə də, müasir dövrümüzü televiziyasız təsəvvür etmək qeyri-mümkündür.

Televiziya dövlətin milli səciyyəsini formalaşdıran əsas vasitələr sırasındadır. Bu elektron informasiya vasitəsi hər bir xalqın tarixində yeni səhifə açıb. Azərbaycan dövlətçiliyinin ən mühüm atributlarından biri, təbliğat vasitəsi olan televiziyanın tarixi Azərbaycan televiziyasından başlanır. Əsası 1956-cı ildə qoyulan və XX əsrin 90-cı illərinə qədər yerli teleməkanda vahid olan Azərbaycan televiziyası həmişə dövlətçiliyin qorunması və xalqın maariflənməsinə xidmət göstərib. Bu televiziyanın hazırladığı verilişlər Azərbaycana, onun qədim tarixinin, mədəniyyətinin öyrənilməsinə, zəruri məlumatların bugünkü nəslə və bütün dünyaya olduğu kimi çatdırılmasına, müstəqil dövlətin təbliğinə və mənəvi müdafiəsinə həsr olunub. Azərbaycan televiziyasının yaranması və inkişafında qüdrətli qələm sahiblərinin, nəsil-nəsil jurnalist ordusunun, habelə zəngin ənənəyə malik rejissor və operator məktəbinin böyük rolu olub. AzTV-nin ötən onilliklər ərzində keçdiyi yolu işıqlandırmaq üçün texniki avadanlıqlardan tutmuş ayrı-ayrı sənətkarlara, dövrünün aynası olan proqramlara, Azərbaycanda baş vermiş önəmli hadisələrə, milli azadlıq hərəkatına, müstəqillik dövrünün gətirdiyi çətin problemlərə - Qarabağ müharibəsinə, paytaxtdakı iğtişaşlara və s. qədər böyük bir epoxanı işıqlandırmaq gərəkdir. Azərbaycan televiziyasının inkişaf mərhələləri bütün bunları, bir sözlə Azərbaycan tarixinin yarım əsrdən çox olan bir parçasını özündə ehtiva edir. Çünki mütəmadi olaraq dəyişən və təkmilləşən televiziyanın inkişaf yolu bütövlükdə aid olduğu cəmiyyətin tarixi mənzərəsini əks etdirir. Tarixin öyrənilməsi isə sadəcə gərəkli deyil, mütləqdir. Nəzərə almaq lazımdır ki, istənilən sahənin gələcəyi onun tarixi kökləri üzərində qurulur və inkişaf mərhələlərinə əsaslanır.

Müasir dövrdə müstəqil yerli telekanalların hamısı yaradıcı və texniki potensialın böyük hissəsini Azərbaycan televiziyasından qazanıb. Respublika həyatında 40 ilə yaxın vahid telekanal olan AzTV müasir Azərbaycan teleməkanının dünənidir. Azərbaycan televiziyası sovet dövrü

cəhətləri, uğurları və qüsurları ilə bərabər bir məktəbdir. Çünki Azərbaycanda televiziya anlayışı, televiziya işi, televiziya texnikası, televiziya yaradıcılığı, televiziya ixtisasları və nəhayət, televiziya jurnalistikası bu qurumda yaranıb, formalaşıb, inkişaf edib, çoxalıb, son nəticədə müasir teleməkanı əmələ gətirib. Hazırda Azərbaycan televiziyasının şüarında ifadə edildiyi kimi: "Hər şey ondan başlanır!"

Türkdilli dövlətlər içərisində ilk dəfə olaraq Azərbaycanda yaranan və yarım əsrdən çox yaşa malik televiziyanın inkişaf mərhələlərinin bu günə qədər yetərincə araşdırılmaması, mövcud tədqiqatların isə natamam xarakter daşıması hazırkı dissertasiya işinin yazılmasını tələb edir. Mövzunun aktuallığı onun öyrənilməsinin əhəmiyyəti və zərurətindən irəli gəlir.

**Mövzunun öyrənilmə dərəcəsi.** Araşdırmalar göstərir ki, Azərbaycan televiziyasının sistemli şəkildə tədqiqinə yalnız respublika müstəqillik qazandıqdan sonra başlanılıb. Azərbaycan televiziyasının inkişaf tarixi haqda ədəbiyyat, eləcə də elmi araşdırmalar bu dövrədək son dərəcə azlıq təşkil edib. Həm də bu əsərlər daha çox ayrı-ayrı sahələr üzrə yazılaraq, televiziyanı tam bir model kimi tədqiq etməyib. Məsələn, T.Hüseynov 1965-ci ("Azərbaycanda rabitənin inkişafı") və 1988-ci illərdə ("Sovet Azərbaycanında rabitə, radioyayım və televiziyanın inkişafı") nəşr olunan kitablarında televiziyanın texniki inkişafını müəyyən qədər işıqlandırıb. Və yaxud R.Əzizov "TV həyatımızda" (1988) adlı araşdırmasında Azərbaycan televiziyasının 80-ci illərdəki maarifləndirici proqramlarını tədqiq edib. Lakin Bakı televiziya studiyasının verilişləri haqda qısa da olsa məlumat ilk dəfə 1969-cu ildə professor F.Mehdinin "Televiziya qüdrətli ideya silahıdır" məqaləsində verilib [1]. Sonralar Z.Məmmədlinin "Danışan güzgünün sirri" (1985) və A.Dadaşovun "Gerçəkliyin astanasında" (1992) əsərlərində Azərbaycan televiziyasının fəaliyyəti, struktur və proqram şəbəkəsi müəyyən qədər araşdırılıb. Lakin bu tədqiqatlardan birincisi sovet dövrünün məhsuludur; digəri isə Azərbaycan televiziyasının fəaliyyətinin ən gərgin dövrü olan 90-cı illərin əvvəllərində yazılıb. Bu səbəbdən də hər iki əsərdə dövrün təsiri duyulur, məsələnin hərtərəfli və sistemli şərhi nəzərə çarpmır. Televiziya tənqidi və nəzəriyyəsində Azərbaycan televiziyasının inkişaf mərhələlərini ilk dəfə sistemli şəkildə araşdıran 80-ci illərdə bu telekanala rəhbərlik etmiş professor E.Quliyev olub. O, "Televiziya iki əsrin ayrıcında" (1993) və "Televiziya: nəzəriyyə və inkişaf meylləri" (2004) kitablarında bu məsələni

[1] Bax: Mehdi F. TV qüdrətli ideya silahıdır. Bakı: ADU-nun Elmi Əsərləri, №2, 1969.

geniş şəkildə işıqlandırmağa çalışıb. Lakin onun tədqiqatı daha çox tarixi aspektdən və publisistik tərzdə aparılıb. Müəllif televiziyanın təşəkkül dövrünə səthi olaraq toxunub; müasir mərhələnin isə daha çox tənqidi tərəflərini göstərib.

Azərbaycan Televiziyasının sabiq rəhbərlərindən biri Nizami Xudiyevin "Radio, televiziya və ədəbi dil" (2002) kitabı AzTV-nin fəaliyyəti haqda sədrin hesabatı xarakterini daşısa da, televiziyanın o dövrdəki strukturu, iş prinsipləri, eləcə də proqramları haqda məlumat almaq üçün gərəkli vəsait kimi dəyərləndirilə bilər.

Azərbaycan televiziyası haqda ən uğurlu araşdırma Y.Əlizadə və Q.Məhərrəmlinin “Azərbaycan efiri: tarix və müasirlik” (2006) əsəridir. Kitabda televiziyanın inkişaf mərhələləri ilə yanaşı, televiziya veteranlarının xatirələri, bir çox tarixi sənədlərin surətinə də yer ayrılıb. Q.Məhərrəmli burada daha çox 1996-cı ildə nəşr olunan “Televiziya haqqında etüdlər” kitabından faydalanıb. Lakin “Azərbaycan efiri: tarix və müasirlik” əsərində televiziyanın fəaliyyəti, xüsusilə də ayrı-ayrı mərhələlərin proqram şəbəkəsi daha çox icmal şəklində işıqlandırılıb. Eləcə də, televiziyanın 1995-ci ildən sonrakı inkişaf tarixinə toxunulmayıb.

Ümumiyyətlə, N.Xudiyevin Azərbaycan televiziyasına sədrlik etdiyi dövr (1996-2006) əksər mütəxəssislər tərəfindən tənqid edilsə də, demək olar ki, dərindən araşdırılmayıb. Ancaq nəzərə almaq lazımdır ki, istənilən analiz prosesində mənfi tərəfi tənqid etmək daha asandır, təhlil isə hərtərəfli xarater daşımalıdır. Bu mənada televiziyanın son illərdəki fəaliyyət tarixinin dərin və obyektiv təhlilə ehtiyacı var. Eyni zamanda Azərbaycan televiziyasının təşəkkül dövrü fəaliyyətinin də daha geniş tədqiqi maraq doğurur.

Onu da qeyd etmək lazımdır ki, bu günə qədərki tədqiqatlarda televiziyanın inkişafı daha çox tarixi baxımdan şərh edilib. Əslində, tarixin hər bir parçasında televiziya bütöv bir yaradıcı həyat yaşayıb. Halbuki hər bir dövrün sadəcə verilişlər şəbəkəsinə nəzər salmaq kifayətdir ki, tarixin özünü bu şəbəkə köməyilə şərh etmək mümkün olsun. Bundan başqa, Azərbaycan televiziyasının sovet dövrü fəaliyyətinin müasir nöqteyi nəzərdən obyektiv tədqiqi zəruridir. Çünki 35 illik böyük bir zaman kəsiyini əhatə edən həmin dövrün birmənalı dəyərləndirilməsi düzgün olmazdı. Dövrün ideoloji təsirini nəzərə alaraq, müasir dövrlə müqayisələr aparmaq, maraqlı təhlillər vermək, pisi yaxşıdan, uğuru nöqsandan ayırıb fərqli nəticələr çıxarmaq olar. Bütün tənqidlərə, mənfi mülahizələrə baxmayaraq, sovet dövrü Azərbaycan televiziyasının özəllikləri, hətta bəzi

məqamlarda müasir televiziyamızla müqayisədə daha müsbət, uğurlu və düzgün keyfiyyətlərə malik olması xüsusi olaraq vurğulanmalı, elmi tədqiqat vasitəsilə açıqlanaraq əsaslandırılmalıdır.

Azərbaycan televiziyası haqda son elmi araşdırmalardan biri də E.Əlibəylinin "Televiziya funksiyaları Azərbaycan teleməkanında" (2005) əsəridir. Müəllifin araşdırması əsasən televiziyanın həyata keçirdiyi funksiyalar və onları gerçəkləşdirən müasir dövrün teleproqramları haqqındadır. Elmi araşdırma "Azərbaycan televiziyası" adı ilə kitab şəklində çap olunsa da, əsas etibarı ilə müstəqil telekanalların verilişləri üzərində qurulub. AzTV-nin proqramlarına isə sadəcə, ötəri olaraq toxunulub və bunun özü də ardıcıl xarakter daşımır. Əsərdə konkret fakt materialları olduqca azdır, daha çox müəllifin müşahidəçi xarakterli subyektiv fikirləri üstünlük təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın məqsədi Azərbaycan televiziyasının inkişaf mərhələlərini araşdırmaq, münasibət bildirmək, elmi cəhətdən səciyyələndirməkdir. Tədqiqat işinin qarşıya qoyduğu vəzifələri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Azərbaycanda televiziyanın yaranması, inkişaf tarixi və istiqamətlərini izləmək;
2. Azərbaycan televiziyasının inkişaf mərhələlərini müəyyənləşdirmək;
3. Azərbaycan televiziyasının fəaliyyətini araşdıran mövcud tədqiqat əsərlərindən faydalanmaqla müqayisəli təhlillər aparmaq;
4. Azərbaycan televiziyasının hər bir inkişaf mərhələsini ayrı-ayrılıqda təhlil etmək, xarakter keyfiyyətləri və proqram siyasətini araşdırmaq;
5. Müasir Azərbaycan teleməkanında mövcud olan digər telekanalların fəaliyyət tarixçəsinə qısaca nəzər salmaq və onların iş prinsiplərini xarakterizə etmək;
6. Azərbaycan televiziyasının müasir teleməkandakı yerini təyin etmək.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyekti Azərbaycan Televiziyasının 1956-2006-cı illərdəki fəaliyyəti, eləcə də müasir teleməkandakı digər telekanalların qısa yayım tarixçəsi (1991-2006) və bu mövzuda yazılmış əsərlər, elmi ədəbiyyatlar, mövzu ilə əlaqədar arxiv sənədləri; habelə qəzet və jurnallarda, elmi dərgilərdə 2006-cı ilədək televiziyanın fəaliyyətini müxtəlif istiqamətlərdə işıqlandıran məqalə, müsahibə, reportaj və resenziyalardır. Dissertasiyanın predmeti

Azərbaycan televiziyasının inkişaf mərhələləri və meylləri, proqram şəbəkəsi, yayım siyasəti, texniki və yaradıcı bazası, eyni zamanda özəl telekanalların təşəkkül xüsusiyyətləridir.

**Tədqiqatın elmi-nəzəri və metodoloji əsası.** Dissertasiya işi yazılarkən müəllif əsasən, tarixi – filoloji metoddan faydalanmış, eləcə də araşdırmaların gedişində kontent-analiz metodunu da tətbiq etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya Azərbaycan jurnalistikasında ilk dəfə olaraq respublika televiziyasının tarixi və inkişaf mərhələlərini elmi iş səviyyəsində, həm də əsasən filoloji aspektdən araşdırır. Dissertasiyada 2006-cı ilə qədər Azərbaycan televiziyasının tarixi fəaliyyətini müxtəlif istiqamətlərdə işıqlandıran bütün ana dilli ədəbiyyatlarda, bir çox xarici mənbələrdə, eləcə də mətbuatda, internet saytlarında və arxiv sənədlərində mövcud olan zəruri məlumatlar toplanaraq sistemləşdirilir. Eyni zamanda Azərbaycan televiziyasının inkişaf tarixi və meylləri həm sovet dövrü ideoloqlarından, həm də müstəqillik dövrünün keçmişi daha çox ifşa edən tənqidçilərindən fərqli olaraq, yeni nöqteyi-nəzərdən, obyektiv şəkildə analiz edilir. Özəlliklə, televiziyanın geniş tədqiqatdan kənarda qalan təşəkkül dövrü inkişaf xüsusiyyətləri, müstəqillik illərində televiziyanı tənəzzülə aparan səbəblər və çətinliklər, daha çox tənqid hədəfinə çevrilən 1996-2006-cı illər televiziyasının araşdırılması və bütövlükdə, Azərbaycan televiziyasının müxtəlif dövrlərini əhatə edən verilişlər şəbəkəsinin sistemli təqdimatı tədqiqatın yenilikləri sırasındadır.

**Tədqiqatın mənbə bazası.** Tədqiqat zamanı Azərbaycanda televiziya bir kütləvi informasiya vasitəsi kimi fəaliyyətə başladığı dövrdən, yəni 1956-cı ildən 1991-ci ilə qədər ölkənin aparıcı mətbuat orqanı sayılan "Kommunist" qəzetində televiziya ilə bağlı dərc edilən əsas materiallar, eləcə də Azərbaycan Teleradiosunun əvvəlcə "Danışır və göstərir Bakı", sonralar "Ekran-efir" adlanan həftəliyinin 1957-2006-cı illəri əhatə edən sayılarının böyük əksəriyyəti xüsusi olaraq diqqətlə nəzərdən keçirilib. Bundan başqa "Ədəbiyyat və incəsənət", "Bakı", "Vışka" qəzetlərinin 1956-1991-ci il buraxılışlarında, "Azərbaycan", "Xalq", "Respublika", "Kino+", "Dalğa" kimi qəzetlərin 1991-2006-cı illərdə çıxan sayılarında televiziya mövzusuna dair materiallar araşdırılıb. Tədqiqatda yerli mətbuatdan geniş istifadənin səbəbi Sovet dövrü Azərbaycan televiziyasının fəaliyyətinə elmi ədəbiyyatlardan çox, o dövrün qəzet səhifələrində geniş yer ayrılmasıdır. İstər ilk dövrün tamaşaçı məktubları, mütəxəssis rəyləri, istər televiziya rəhbərlərinin illik hesabatları, istərsə də televiziya verilişlərinin proqramları paralel olaraq

həmin dövrün mətbu səhifələrində yer aldığı halda, elmi ədəbiyyatlarda çox az işıqlandırılıb.

Tədqiqatda Azərbaycan televiziyası, eləcə də digər yerli telekanallar haqda məlumatların yer aldığı ölkədaxili internet saytlarından da mənbə bazası olaraq istifadə edilib. Araşdırmanın əsas mənbələrini E.Quliyev, Q.Məhərrəmli, A.Dadaşov, Y.Əlizadə, Z.Məmmədli, N.Xudiyev, C.Məmmədli, A.Kazımzadə, A.Mirzə kimi müəlliflərin əsərləri təşkil edir. Bundan başqa, bir çox əcnəbi müəlliflərin araşdırmalarında işlənilən mövzunun Azərbaycan teleməkanına tətbiqi formasından istifadə edilib. Məsələn: Ə.Bağırov, İ.Katsev "Televiziya-XX əsr", Ə.Bağırov, E.Boretskiy, A.Yurovskiy "Televiziya jurnalistikasının əsasları", A.Yurovskiy "Sovet televiziya jurnalistikasının tarixi", A.Aziz "Elektron yayımın əsasları" və s.

Araşdırma zamanı Azərbaycan Milli Arxiv İdarəsi, Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi, Azərbaycan Respublikası Dövlət Kino-Foto Sənədləri Arxivi, eləcə də Azərbaycan Teleradio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin Arxiv materialları da tədqiqat obyekti olub.

Tədqiqat aparılarkən Azərbaycan televiziyasının ilk dövr əməkdaşları (Tofiq Axundov, Arif Qazıyev, Tamara Gözəlova), eləcə də müxtəlif sahələrdə televiziyanın uğurlu fəaliyyətinin qurucuları olan mütəxəssislərlə (sədr Elşad Quliyev, rejissor Vasif Babayev, rejissor Ramiz Həsənoğlu, operator Eldar Məmmədov, diktor Rafiq Hüseynov) görüşülmüş, onların şəxsi arxivlərindəki materiallar nəzərdən keçirilmiş, xatirələr də toplanmışdır.

**Tədqiqatın nəzəri-praktik əhəmiyyəti.** Dissertasiya işi Azərbaycanda televiziyanın inkişafının mərhələli qaydada öyrənilməsi və müqayisəli təhlili əsasında yazılıb. Mövzu ilə bağlı bu günə qədər dağınıq şəkildə, daha çox dövrün, mühitin təsiri ilə işlənən, habelə dərindən aparılmayan bütün mövcud araşdırmalar toplanmış, Azərbaycan televiziyasının fəaliyyət tarixi və inkişaf mərhələləri haqda digər zəruri fakt materiallar da tədqiq edilərək onlara əlavə olunmuşdur. Elmi analizlə paralel hazırlanan bu icmal həm tələbələrin, həm də bu sahə ilə maraqlanan mütəxəssislərin yararlana biləcəyi dəyərli vəsait hesab edilə bilər. Hər bir cəmiyyətdə uğurlu üstqurum möhkəm bazis üzərində qurulur. Televiziya işi ilə bağlı hər bir şəxs təqdim olunan dissertasiya vasitəsilə müasir Azərbaycan teleməkanının nəyə əsaslanaraq bugünkü səviyyəyə çatması, mövcud problemlərin fəaliyyət tarixində axtarılması, eləcə də renessans

dövrünün xarakter cəhətlərindən biri kimi keçmişin uğurlarının müasir dövrə tətbiqi məsələlərini öyrənə bilər. Dissertasiyanın əsas nəzəri-praktik əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan televiziyasının tarixi kökləri: dünəni və bu günü, inkişaf mərhələləri, yaradıcılıq istiqamətləri, nəzəri əsasları, eləcə də perspektivləri haqda hərtərəfli məlumat verməklə gələcəkdə savadlı və əvvəlki təcrübədən xəbərdar jurnalist kadrların yetişdirilməsinə kömək göstərə bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın mövzusu Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin Elmi şurasında müəyyənləşdirilmiş, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən Əlaqələndirmə Şurasında təsdiq edilmiş, televiziya və radiojurnalistikası kafedrasında yerinə yetirilmişdir. Dissertasiya işinin əsas məzmunu və müddəaları elmi konfranslarda məruzə edilmiş, Azərbaycan xalqının milli özünütəsdiqində ədəbiyyat və mədəniyyətin yeri mövzusuna həsr olunmuş beynəlxalq konfransın materiallarında, Bakı Dövlət Universitetinin, Bakı Slavyan Universitetinin elmi-nəzəri jurnallarında dərc edilmişdir. Azərbaycanda televiziyanın yaranması, inkişaf mərhələləri, proqram şəbəkəsi, tədqiqi, inkişaf meylləri ilə bağlı beş elmi məqalə və bir tezis Azərbaycan Respublikası AAK-nın təsdiq etdiyi siyahıya daxil olan elmi dərgilərdə dərc olunmuşdur.

**Tədqiqatın strukturu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş mənbələrin, elmi-nəzəri ədəbiyyatın siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın *giriş* hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti, metodoloji əsasları, elmi yeniliyi, elmi-nəzəri və praktik əhəmiyyəti, aprobasiyası və quruluşundan bəhs edilmişdir.

**"Azərbaycanda televiziyanin təşəkkülü"** adlanan birinci fəsil üç yarımfəsildən ibarətdir. Bu fəsildə Qafqaz dövlətləri içərisində ilk dəfə Azərbaycanda televiziyanın təşəkkül tapması, yaranma tarixi, formalaşma xüsusiyyətləri, eləcə də dəyişən onilliklər ərzində inkişaf səviyyəsi nəzərdən keçirilir. Hər bir dövrün proqram şəbəkəsi, yaradıcı və texniki inkişaf özəllikləri təhlil edilir.

*"Azərbaycan televiziyasının inkişaf mərhələləri tədqiqatlarda"* adlı birinci yarımfəsildə mütəmadi olaraq dəyişən və təkmilləşən televiziyanın

inkişaf yolu bütövlükdə aid olduğu cəmiyyətin tarixi mənzərəsi ilə paralel şəkildə tədqiq olunur.

Hər xalqın mədəniyyət tarixini müxtəlif inkişaf mərhələlərinə bölmək, onların səciyyəvi cəhətlərini müəyyənləşdirmək mühüm əhəmiyyət kəsb edir. XX yüzilliyin ən böyük kəşflərindən sayılan, bəzənsə "əsrin möcüzəsi" adlandırılan televiziya isə mədəniyyət tarixinin tərkib hissəsi olmaqla yanaşı, bütövlükdə incəsənət növlərinin əyani təbliğat vasitəsi kimi də çıxış edir. Bu mənada mütəmadi olaraq dəyişən və təkmilləşən televiziyanın inkişaf yolu bütövlükdə aid olduğu cəmiyyətin tarixi mənzərəsini əks etdirir.

Sovetlər Birliyində xalqın dünyagörüşü və bədii-estetik zövqünün formalaşmasında əsaslı rol oynamış televiziya Azərbaycanda da mürəkkəb inkişaf yolu keçərək, tədricən kütləvi əxlaq və xarakter psixologiyasından milli dirçəliş, oyanış düşüncəsinə manevr etmişdir. İlk əvvəl "ev kinosu" kimi dəyərləndirilən televiziya mərhələ-mərhələ irəlilədikcə cəmiyyətin ictimai-siyasi, eləcə də mədəni həyatının bir parçasına çevrilmiş, xalqın məlumatlanması, maariflənməsi və əylənməsi funksiyalarını yüksək şəkildə gerçəkləşdirmişdir.

Azərbaycan televiziya tənqidi və nəzəriyyəsində televiziyanın inkişaf mərhələlərinin tədqiqi o qədər dərin aparılmasa da, araşdırmaçılar bu fəaliyyət tarixini əsasən, 2 nöqteyi - nəzərdən səciyyələndiriblər:

1. ictimai-siyasi mühitin inkişafı;
2. maddi-texniki bazanın inkişafı.

Qeyd edilən hər iki amil bir-biri ilə sıx bağlı olsa da, televiziya tədqiqatçıları daha çox tarixi məqamlar üzərində dayanmış, texniki və yaradıcı inkişafı isə əsasən, səthi olaraq nəzərdən keçirmişlər.

Bütün digər sovet respublikaları kimi Azərbaycanda da uzun müddət vahid televiziya sistemi fəaliyyət göstərdiyindən, yerli teleradio ciddi dövlət və hökumət nəzarətində olmuş, sərt çərçivələrdən kənara çıxa bilməmişdir. Televiziya arxivi isə obyektiv tədqiqatlara qapalı olmuş, yetərincə qorunmamış və dağıdılmışdır. Bununla belə, Azərbaycan televiziyasının inkişaf mərhələləri bir neçə tədqiqatçının araşdırmasında təhlil olunmuş, konkret fəaliyyət mənzərəsi yaradılmışdır. Bir-birindən incə məqamlarla fərqlənən bu tədqiqatlarda televiziyanın təşəkkül meylləri aşağıdakı kimi səciyyələndirilmişdir.

Televiziya haqqında, özəlliklə Azərbaycan televiziyasının inkişafı haqda ilk araşdırmalardan birinin müəllifi Zeynal Məmmədli belə hesab

edir[2] ki, bütövlükdə televiziyanın inkişafını əsas etibarı ilə 2 yerə bölmək olar:

1. Videoya qədərki, yəni canlı verilişlər dövrü;
2. Videodan sonrakı dövr.

Çünki televiziyada məhz video imkan verir ki, iştirak effektini saxlamaq mümkün olsun. Yəni seyrçinin iştirak illüziyası məhz videonun meydana çıxması ilə yarana bilərdi. Uzun illər Dövlət Teleradio Verilişləri Şirkətində rəhbər vəzifələrdə çalışan, televiziya sahəsində mütəxəssis rəyi və tədqiqatlarıyla tanınan professor Elşad Quliyev isə Azərbaycan televiziyasının inkişaf mərhələləri sırasında müstəqillik dövrünün mürəkkəb mənzərəsini də tədqiq edib. Onun fikrincə, Azərbaycan televiziyasının inkişaf tarixi iki əsas dövrə bölünür. 1956-1991-ci illəri əhatə edən birinci dövrü o, televiziyanın sovet, yaxud əyalət dövrü; 1991-ci ildən müasir dövrümüzə qədər olan və hazırda davam edən ikinci dövrü isə müstəqillik dövrü adlandırır. Televiziya mütəxəssisi professor Qulu Məhərrəmli isə Azərbaycan televiziyasının inkişafını 3 əsas dövrə ayırır. O, bu fikri tədqiqatçıların televiziyanın təkamül tarixini 3 əlamətə görə fərqləndirməsiylə əlaqələndirir[3]. Zəruri texniki səviyyənin yaradılması, kütləvi verilişlərə başlanılması və yayımın təkmilləşdirilməsi ilə səciyyələndirilən birinici dövr; kütləvi kommunikasiyanın xüsusi növü kimi televiziya sisteminin idarə olunmasının və fəaliyyətinin təşkili, ekran yaradıcılığının spesifik sahəyə çevrildiyi və telepublisistikanın formalaşdığı ikinci dövr; televiziyanın cəmiyyət həyatına təsirinin güclənməsi və jurnalistikanın təməl prinsiplərinin ön plana çəkildiyi üçüncü dövr.

Əlbəttə, iki ictimai-siyasi quruluş dəyişmiş, yarım əsri geridə qoymuş, bir neçə ədəbi-yaradıcı nəsil yetişdirmiş Azərbaycan televiziyasının mürəkkəb, zəngin və uzun inkişaf yolunu vahid nöqteyi-nəzərdən mərhələlərə bölmək çətindir. O zaman belə bir sual meydana çıxır: ümumiyyətlə, bütöv bir ölkədə geniş anlamda televiziyanın inkişafı şərh olunarkən nələr nəzərə alınmalıdır? Fikrimizcə, televiziyanın təkamül tarixi konkret mərhələlərə bölünməkdənsə, müxtəlif amillərə görə fərqləndirilsə, daha məntiqli görünər. Məsələn, texniki, yaradıcı, ideoloji və s. Televiziya texniki tərəqqinin töhfəsidir. İstənilən cəmiyyətdə televiziya ilk növbədə texniki vasitə kimi yaranıb. Bu səbəbdən də təkamül tarixində televiziyanın inkişafını ilk növbədə texniki baxımdan dəyərləndirmək daha

---

[2] Məmmədli Z. Danışan güzgünün sirri. Bakı, İşıq, 1985, s.41.
[3] Məhərrəmov Q. Televiziya haqqında etüdlər. Bakı, Azərnəşr, 1996, s.97.

məqsədəuyğundur. İdeoloji baxımdan isə hər bir cəmiyyətin ictimai-siyasi həyatındakı özəlliklər ön plana çəkilir. Televiziya mütəxəssisləri belə hesab edirlər ki, "hər dövlətin televiziyası özünə bənzəyir" [4]. Sosializm - kapitalizm mücadiləsi kimi təzadlı cərəyan yaşayan XX əsrin formalaşdırdığı yeni bir informasiya vasitəsi – televiziyanın inkişaf meylləri də fərqli ölkələrdə müxtəlif təzahürlərlə gerçəkləşdi. Televiziya - cəmiyyət qarşılıqlı təsir mexanizmini nəzərə alaraq, uzun müddət sovet imperiyasının tərkib hissəsi olmuş Azərbaycan televiziyasının inkişafı tarixi-ideoloji cəhətdən də 2 istiqamətdə dəyərləndirilə bilər:

1. Azərbaycan televiziyasının inkişafında sovet mərhələsi;
2. Azərbaycan televiziyasının inkişafında müstəqillik mərhələsi;

Bu günə qədər deyilənləri ümumiləşdirdikdə isə belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan televiziyası öz inkişafında 3 zəruri və məntiqi mərhələdən keçib:

1. Təşəkkül dövrü (1956-1960-cı illər). Bu mərhələdə Azərbaycan sovet televiziyası formalaşıb;
2. Təkamül dövrü (1960-1990-cı illər). Bu mərhələdə televiziya bir KİV kimi özünü təsdiqləyib;
3. Müasir dövr (1990-cı ildən etibarən). Bu mərhələdə müstəqil Azərbaycan televiziyası təşəkkül tapıb.

Təşəkkül mərhələsi televiziyanın ilk sınaq verilişlərinin yayımlandığı vaxtdan, yəni 1956-cı ildən başlayır. Çünki Azərbaycan televiziyasının yaşı məhz bu tarixdən hesablanır və informasiya vasitəsi kimi "mavi ekran" ilk dəfə 1956-cı ilin fevralında "danışıb". Təşəkkül mərhələsindən təkamülə keçid 1960-ci illə sərhədlənir. Bu isə həmin ildə baş verən və televiziyanın fəaliyyətində əhəmiyyətli dəyişikliklərə səbəb olan bir çox məqamlarla əlaqədardır.

*"Ekran jurnalistikasının formalaşması və televiziyanın ilk addımları"* adlı ikinci yarımfəsildə Azərbaycanda televiziyanın yaranması, tarixi şərait, formalaşması xüsusiyyətləri və ilk addımları nəzərdən keçirilərək təhlil olunur. Bu yarımfəsildə həmçinin, efir fəaliyyətinin ilk günlərində televiziyanın əsas problemlərdən biri olan kadr məsələləri, müşahidə olunan əsas nöqsanlar, habelə ilk verilişlər və onların yaradıcı xüsusiyyətləri, televiziyanın ilk diktorları və s. məqamlar da araşdırılıb. 1956-cı il fevralın 14-də - Sov. İKP MK-nın 20-ci Qurultayının açılışı günü

---

[4] http://www.rtrs.ru/news/read/1305/

bütün Qafqazda, eləcə də türk dövlətləri içərisində ilk dəfə Azərbaycanda televiziyanın fəaliyyətə başlaması türk televiziya mühitində bir fakt olaraq, Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edir. Eləcə də, ana dilli yayımın başlanması öz dilində danışmağın belə yasaq edildiyi Cənubi Azərbaycan faktorunu üstələdi. Bu mənada Azərbaycan dilində yayımın olması çox önəmliydi. Doğrudur, Azərbaycan sovet ölkəsiydi, amma sovetlər konteksindən başqa, bir dil kimi bu, Azərbaycan türkcəsi üçün zəruri idi. Tbilisi, İrəvan, Daşkənd, Vilnüs kimi şəhərlərdə mavi ekran Bakıdan sonra işıqlandı. Beləliklə, 1956-cı ildə Sumqayıt metal-polad konstruksiyası qurğusunun inşaatçıları şəhərin dağlıq hissəsində 180 metrlik TV qülləsi ucaltdılar. Lakin ilk veriliş günü teleqüllənin inşası sona yetmədiyi üçün studiya antenası 44 metrlik adi neft buruğunda quraşdırıldı. Ekranda əvvəlcə sınaq cədvəli göstərildi, sonra gənc aktrisa Nəcibə Məlikova kadrda görünərək məşhur "Diqqət, göstərir Bakı!" sözlərini səsləndirdi [5] və ölkədə müntəzəm yayımın başlanması münasibətilə tamaşaçıları təbrik etdi. Daha sonra "Luç" markalı televizorun son dərəcə xırda ekranında "Bəxtiyar" filmi nümayiş olundu. Lakin səs siqnallarının ötürülməsi ilə bağlı nasazlıq meydana çıxdığı üçün tamaşaçılar filmə səssiz baxmalı oldular. İlk yayım günü operator kimi kamera arxasında mühəndis Sərvər Quliyev, rejissor pultu arxasında isə Kamil Rüstəmbəyov dayanmışdı. Həmin gündən etibarən studiya əvvəlcə həftədə 2, sonra isə 3 dəfə və təxminən iki saat ərzində efirə çıxırdı. İlk aylar sınaq xarakteri daşıyan verilişləri Azərbaycan tamaşaçısı axşam saatlarında seyr edə bilirdi.

Tarixi zərurətdən Azərbaycan televiziyası sovet televiziyası kimi yarandı və inkişaf etdi. Bu səbəbdən də təşəkkül dövründə Azərbaycan televiziyasının əsas vəzifəsi zəhmətkeşləri sosializm və kommunizm quruculuğu vəzifələrinin yerinə yetirilməsinə səfərbər etmək; partiya qurultaylarının qərar və materiallarını geniş təbliğ etmək; eləcə də, əhalinin siyasi, mədəni və estetik tərbiyəsi üçün çalışmaq idi. Bu fikirlər mütəmadi olaraq hər il Radio günü, yəni may ayının 7-də televiziya rəhbərliyinin rəsmi qəzetlərə verdiyi hesabatlarda da vurğulanırdı. Komitənin o dövrdəki iclas mətnləri də bunu bir daha sübut edir. Məsələn, sədr T.Əliyevin iştirakı ilə keçirilən 1959-cu il 7 yanvar tarixli iclasda qeyd olunur ki, televiziyada fəaliyyət göstərən 4 (təbliğat, uşaq və gənclər, ədəbi-dram, musiqi)

---

[5] Əlizadə Y., Məhərrəmli Q. Azərbaycan efiri: tarix və müasirlik. Bakı: Nurlan, 2006, s.74.

redaksiyadan ikisi (təbliğat, uşaq və gənclər) öz materiallarını bütünlüklə qurultaya həsr edib.[6] Sadəcə plenum materialları çap olunduqdan sonrakı 4 gün ərzində televiziyada bu haqda 31 veriliş verilib (mövzu haqda tezislər, müzakirələrdə irəli sürülən təkliflər, yediillik plana həsr olunmuş "Əzəmətli rəqəmlər" silsilə verilişi). Hətta iclasdakı müzakirələrdə musiqi verilişləri redaksiyası üçün bu mövzuya uyğun proqram forması tapmaq haqda diskusiya da aparılıb.

Azərbaycan televiziyasının inkişafındakı birinci mərhələ üçün ən dəyərli fakt, ümumiyyətlə, televiziyanın açılmasıdır. Amma bu mərhələ mahiyyət etibarı ilə əslində, Azərbaycan televiziyasının daş dövrü hesab edilir. Bu dövrdə demək olar ki, texniki inkişaf müşahidə olunmur. Yaradıcılıq axtarışlarına gəlincə isə, Mərkəzi televiziyada olduğu kimi, Azərbaycan televiziyasının ilk verilişlərində də bu məqam nisbətən kölgədə qaldı. Təşəkkül dövründə proqramlar sadəcə Moskvanın diktəsi ilə qurulurdu, televiziya işi hələ tam dərk edilməmiş, mənimsənilməmişdi. Bütövlükdə, Azərbaycan televiziyasının fəaliyyətində asılılıq açıq-aydın duyulurdu. Bu dövrdə televiziyanın rəqibi sadəcə kino idi, çünki əyanilik, canlı şəkildə nümayiş edə bilmək keyfiyyəti radio və qəzetin üstünlükləri sırasında yox idi. Kinoya gəlincə isə, televiziya onu da sanki sıradan çıxarırdı. Çünki ilk mərhələdə televiziya bir möcüzə sayılırdı. O dövrdə heç kim inana bilmirdi ki, evdə oturub kinoya baxa bilər, yaxud kimsə çıxış etsə, onu dinləyə bilər. Bu möcüzə də məsuliyyət hissini artırırdı.

Təşəkkül dövründə daha çox təbliğat-təşviqat vasitəsi kimi çıxış edən televiziyanın inkişafında ilk dönüş nöqtəsi "Sovet Televiziyasını daha da inkişaf etdirmək haqqında" Sov.İKP MK-nın 1960-cı il 29 yanvar tarixli qərarı oldu. Məhz bu dövrdən etibarən, televiziyanın inkişafında təkamül mərhələsi başlayır. Azərbaycan televiziyası təkamül dövrünü tədricən keçib. Hətta bəzi mütəxəssislər belə hesab edirlər ki, 60-cı ilə qədər Azərbaycanda televiziyanın fəaliyyətindən danışmaq düzgün deyil. Bütövlükdə, keçmiş SSRİ məkanında televiziyanın yaranması və inkişafı sosializm - kommunizm quruculuğu vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar olub. Lakin cəmiyyətin siyasi və mədəni həyatında böyük qüvvəyə malik televiziya dövrün, mühitin, elm və texnikanın, eləcə də auditoriyanın tələbi ilə dəyişib inkişaf edir, yeni məzmun, yeni mahiyyət kəsb edirdi.

[6] Госкомитет Совета Министров Азербайджанской ССР по радиовещанию и телевидению. Протоколы совещаний работников радиовещания и телевидения за 1959 год. Фонд-1581, опись №2, общий отдел, папка 1, 103 с.12.

Azərbaycan televiziyasının 60-cı illərin islahatları ilə başlanan təkamül mərhələsi 80-ci illərin yenidənqurma siyasəti, müstəqillik ideyaları ilə yekunlaşaraq, müasir mərhələni formalaşdıra bildi. 30 illik mürəkkəb və rəngarəng dövrü əhatə edən bu mərhələnin özünü də səciyyəvi cəhətlərinə görə 3 hissəyə - onilliklərə ayırmaq olar: 1960-70; 1970-80; 1980-90.

Birinci fəslin yekunu kimi verilən *"Televiziya 60-cı illərdə: özünüdərk və perspektivlərə baxış"* yarımfəslində təşəkkül dövrünün sonu təkamül mərhələsinin başlanğıcı rolunu oynayan 1960-cı ilin 29 yanvar tarixili qərarı və bu qərarın ortaya çıxardığı nəticələr təhlil olunur.

Bir çox mütəxəssislər, o cümlədən xalq artistləri rejissor Vasif Babayev və diktor Rafiq Hüseynov belə hesab edirlər ki, Azərbaycanda peşəkar televiziya yayımı məhz 60-cı illərdən başlayıb. Bu dövr Azərbaycan televiziyasının inkişaf tarixində təkamül dövrünün başlanmasına təkan verib. Ümumiyyətlə, incəsənət tarixində (kinoda, ədəbiyyatda, vokal sənətində, rəssamlıqda, idmanda və s.) çox vaxt Azərbaycanın renessans dövrü kimi dəyərləndirilən 60-70-ci illər televiziya üçün də yüksəliş mərhələsi sayıla bilər. Çünki məhz bu dövrdə televiziya ibtidailikdən peşəkarlığa doğru addımlamış oldu.

- 60-cı illərdən etibarən televiziya proqramlarının hazırlanması işinin kəmiyyət və keyfiyyət cəhətdən paralel inkişaf etməsi diqqəti cəlb edir. Bu inkişaf həm yaradıcılıq axtarışlarının zənginləşməsi, həm də televiziyanın maddi-texniki bazasının sürətlə yeniləşməsi ilə əlaqədar idi. 60-cı illərin ortalarından etibarən studiyalarda yeni texnologiyanın tətbiqinə başlanıldı.
- 60-cı illərdə "Kommunist", "Ədəbiyyat və incəsənət", "Vışka" kimi qəzetlərdə dərc olunan materiallar o dövrün televiziya mühiti, proqramlar haqda ətraflı məlumat verməklə yanaşı, dərin təhlil baxımından da diqqəti cəlb edir. Bu isə onu deməyə əsas verir ki, 60-cı illərdə artıq televiziya tənqidi formalaşmağa başlamışdı. Bu dövrdə televiziya teatrının da inkişafı diqqəti cəlb edirdi

Dissertasiya işinin **"Azərbaycan televiziyasının inkişaf xüsusiyyətləri"** adlı ikinci fəsli də üç yarımfəsildən ibarətdir. Ardıcıl olaraq *"70-ci illər televiziyasında yaradıcılıq izləri"* və *"Yenidənqurma ekranda intensiv axtarışlar dövrü kimi"* başlıqları altında işlənən birinci və ikinci yarımfəsillərdə təkamül dövrünü yaşayan Azərbaycan televiziyasının inkişaf xüsusiyyətləri və özəllikləri ən xırda detallarına qədər təhlil edilib.

- 70-ci illərin əvvəllərindən etibarən bilavasitə respublika rəhbərliyinin, şəxsən Azərbaycan KP MK-nın birinci katibi Heydər

Əliyevin təşəbbüsü və qayğısı sayəsində televiziya sahəsində əsaslı tədbirlər görülməsinə başlandı. Verilişlərdə getdikcə bir səlislik və kamillik nəzərə çarpırdı. Xüsusilə televiziya texnikasının tədricən təkmilləşməsi buna imkan verirdi.

• 70-ci illərin ortalarında respublika televiziyasında yeni modifikasiyalı KADR-3P videomaqnitofonundan istifadə keyfiyyətli elektron montajına şərait yaratdi. Televiziya işində mühüm mərhələ olan montaj prosesinin gerçəkləşməsi, xəbərlər proqramında zəngin informasiya süjetlərinin, bütövlükdə, mürəkkəb kompozisiyalı verilişlərin yaranmasına səbəb oldu. Televiziya montajı paralel olaraq yaradıcı inkişafı da sürətləndirdi.

• Televiziyanın inkişafında daha bir mühüm addım rəngli təsvirlərin verilə bilməsi, yəni rəngli yayımın həyata keçirilməsiydi. 70-ci illərdə bu vəzifə də yerinə yetirildi.

• 70-ci illərin əvvəllərində Azərbaycan televiziyasının fəaliyyətində aparıcı və diktorluq işi artıq fərqləndirilirdi. Xüsusilə, müxtəlif peşə sahibləri olan aparıcıların iş üslubu, eləcə də hazırladıqları proqramlar tamaşaçı və mütəxəssislər tərəfindən alqışlanırdı.

• 70-ci illərin proqram şəbəkəsində Gənclik Baş Redaksiyasının aylıq jurnalı olan “Hünər”, Azərbaycan televiziyasında səhər proqramı ənənəsi formalaşdıran “Səhər görüşləri”, Azərbaycan təfəkküründə və təcrübədə gedən proseslərin ifadəsi olan "İnsan və qanun", "Kamillik" və s. bu kimi verilişlər, habelə bir çox uğurlu sənədli film önəmli təhlil obyekti sayıla bilər.

• Bu dövrdə televiziyanın tamaşaçı fikrinə hörməti, tamaşaçı tələbini yüksək dəyərləndirməsi məqamı da müsbət mənada diqqəti cəlb edir. Həmin illərdə radio və televiziyaya gələn məktubları araşdırmaq, eləcə də onlardan yararlanmaq məqsədilə komitədə sosioloji tədqiqat qrupu təşkil edilmişdi. Bu qrupun səmərəli fəaliyyəti nəticəsində məktublar əsasında yeni verilişlər yaradılır, tamaşaçıların maraq və tələb dairəsi öyrənilir, nöqsanlar aradan qaldırılırdı.

• 70-ci illərdə həm kinoda, həm də radio və televiziyada milli-mənəvi dəyərlərə yüksək qiymət verilməsi, milli şüurun oyanması müşahidə olunurdu. Artıq bu illərdə gələcək müstəqil fikirli verilişlərin rüşeymləri formalaşmağa başlamışdı. Bütövlükdə yaradıcı işin get-gedə daha da təkmilləşməsi nəzərə çarpırdı. Verilişlərdə forma-məzmun vəhdətinin gözlənilməsi, təsvirlə işləmək texnikası, ekran estetikası və teledramaturgiya qanunlarının əxz olunması, xəbərlərdə informasiya

üslubunun vizual cəhətdən də formalaşması dövrün yaradıcı meyllərini səciyyələndirən keyfiyyətlər sırasında idi. Televiziya filmlərindən əlavə, ayrı-ayrı proqramlarda, xüsusilə iri həcmli publisistik verilişlərdə rejissor işinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması diqqəti cəlb edirdi.

Bir çox mütəxəssislər, eləcə də televiziya veteranlarının əksəriyyəti 80-ci illəri Azərbaycan televiziyasının fəaliyyətində kuliminasiya nöqtəsi kimi dəyərləndirirlər. Sovet təbliğat və təşviqat maşını olan televiziya artıq paralel olaraq, fərqli funksiyaları da gerçəkləşdirməyə başlamışdı. 1980-91-ci illər ərzində Azərbaycan televiziyasının inkişaf tarixini nəzərdən keçirdikdə, onun mahiyyətinin keyfiyyətcə dəyişdiyinin və mürəkkəbləşdiyinin şahidi oluruq. Bu dövrün televiziyası kütləvi informasiya vasitəsi kimi ictimai həyata təsirinin güclənməsi, tematika rəngarəngliyi, forma zənginliyi, ekranda yeni simalar, uğurlu ünvanlı proqramlar, yaradıcı və texniki kadrların işində sənətkarlığın artması və veriliş bolluğu ilə xarakterizə oluna bilər. Azərbaycan televiziyasında operativlik, müasirlik və ən əsası ilk azad fikirlər də bu illərin səciyyəvi xüsusiyyətləri sırasındadır. Zaman ötdükcə tamaşaçıların təhsil və mədəni səviyyəsinin yüksəlməsi, maraq dairəsinin genişlənməsi televiziya proqramlarına da tələbkarlığı artırırdı. Artıq 80-ci illərdə ekran publisistikası daha böyük əhəmiyyət kəsb edirdi. Televiziyada fikir və söz yeniliyinə, tutarlı dəlillərə, inandırıcı söhbətə ehtiyac yaranmışdı. Ekranın təsir gücü və imkanlarından maksimum istifadə etmək zəruri idi. Bu, bir tərəfdən televiziya rəhbərliyinə elə bu qurumda yaradıcılıq məktəbi keçmiş E.Quliyevin gəlməsi, digər tərəfdən isə 1985-ci ildən etibarən, ümumilikdə Sovetlər Birliyində "yenidənqurma siyasəti"nin həyata keçirilməsi ilə bağlı idi. 80-ci illər bütün o vaxtkı qəliblərə, bəsit forma və çərçivələrə, siyasi dövrün özündən gələn nöqsanlara - sovet rejiminin hökmranlığı, kommunist ideologiyası və imperiya siyasətinə baxmayaraq, bu mərhələdə qeydə alınan nailiyyətlərə görə televiziyanın ən önəmli inkişaf dövrü hesab edilir. Birinci mərhələdən, yəni təşəkkül dövründən fərqli olaraq, artıq bəzi proqramlarda qismən də olsa müstəqillik müşahidə olunurdu. Təkamül mərhələsində televiziyada daha bir mühüm amil - çoxproqramlılıq nəzərə çarpır. Əgər təşəkkül dövründə Azərbaycanda yalnız yerli televiziyaya baxmaq mümkün idisə, artıq ikinci mərhələdə Mərkəzi Televiziyanın bir neçə kanalı yayımlanır, eyni zamanda interviziya və mübadilə proqramları nəticəsində müttəfiq respublikaların bəzi verilişlərini də izləmək olurdu.

80-ci illərin sonu 90-cı illərin əvvəlləri Azərbaycan televiziyasının həyatında bir tərəfdən yetkinləşmə, digər tərəfdən isə tərəddüdlər dövrü

oldu. Çünki uzun onilliklər boyu formalaşmış, müxtəlif vasitələrlə beyinlərə yeridilmiş stereotip düşüncə tərzini dağıtmaq, tabeçilik prinsiplərindən uzaqlaşıb birdən-birə sərbəst istiqamət almaq heç də asan iş deyildi. İkinci fəslin ikinci yarımbaşlığında bu məqamla yanaşı, Dağlıq Qarabağ problemi, onun TV-də əksi və TV-yə təsiri, eləcə də 90-cı ilin yanvar hadisələrinin analizinə də yer ayrılıb.

İkinci fəslin *"Televiziyada struktur və təşkilati islahatlar"* adlanan üçüncü yarımfəslində isə Azərbaycan televiziyasının inkişaf tarixində ən önəmli məqamlardan biri olan demokratikləşmə və bu istiqamətdə görülən işlər araşdırılıb. SSRİ prezidenti M.S.Qorbaçovun 1990-cı il iyulun 15-də imzaladığı "SSRİ-də teleradio yayımının demokratikləşdirilməsi və inkişafı haqqında" fərman digər sovet respublikalarında olduğu kimi, Azərbaycanda da televiziyanın müstəqillik dövrünün əsasını qoymuş oldu. Bu sənəddə ilk dəfə olaraq əyalət respublikalarının teleradio komitələrinə verilən hüqüq və səlahiyyətlərin genişləndirilməsi və RTV haqda qanunum qəbul edilməsinin zəruriliyi düzgün şəkildə ifadə olundu. Həmin fərmana uyğun olaraq, Azərbaycan Prezidenti A.Mütəllibov da respublikada televiziya yayımının inkişafı ilə bağlı fərman imzaladı. 1991-ci il mart ayının 12-də imzalanan fərmana görə, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin statusu dəyişdirilərək şirkətə çevrildi. Daha sonra dövlət başçısının 25 aprel 1991-ci il 207 saylı sərəncamı ilə şirkətin yeni Nizamnaməsi təsdiq olundu. Qərara əsasən, Qeysər Xəlilov Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri vəzifəsindən azad olunaraq, Dövlət Teleradio Verilişləri Şirkətinə sədr təyin olundu. Lakin qərarda sədrlə yanaşı, şirkətə rəhbərlik edən kollegial orqanın yaradılması da qeyd edilirdi. Yerli televiziya tarixində ilk dəfə yaradılan proqram-nəzarət şurasının (PNŞ) 11 nəfərdən ibarət olması nəzərdə tutulurdu. Qərara görə, həmin şuraya ictimaiyyətin və müxtəlif siyasi partiyaların nümayəndələrinin cəlb olunması tövsiyə edilirdi. PNŞ-nin üzvlərinin siyahısını isə respublika prezidenti təsdiq etməli idi. Proqram-nəzarət şurasının yaradılması Azərbaycan televiziyasında yeni – demokratik idarəetmə formasının həyata keçirilməsi demək idi. Bu isə hələ sovet televiziyasının bir parçası olaraq qalan Azərbaycan televiziyası üçün mühüm bir dəyişiklik idi. Beləliklə, 1991-ci ilin 12 mart qərarı teleşirkətə yaradıcılıq və istehsal fəaliyyətinə uyğun olaraq öz strukturunu sərbəst müəyyənləşdirmək imkanı verdi.

Azərbaycan televiziyasının müstəqillik dövrünü səciyyələndirən bir çox başqa cəhətlərlə yanaşı, həmin illərdə televiziya rəhbərliyinin tez-tez

dəyişdirilməsi məqamı da diqqəti xüsusi olaraq cəlb edirdi. 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi durumun qeyri - sabit və qarışıq olması televiziya rəhbərliyinə təyin olunanların fəaliyyətinin çox qısa sürməsi ilə nəticələnirdi. Respublikada yeni qüvvələr hakimiyyətə gələn kimi, televiziyaya yeni sədr təyin olunurdu. Hər bir yeni sədr isə özündən əvvəlki rəhbərin fəaliyyətini uğursuz hesab edərək, televiziyada dəyişikliklər aparmağa, ilk növbədə öz komandasını yaratmağa çalışırdı. Beləliklə, 1990-1996-cı illərdə televiziyanın rəhbərliyi 6 dəfə dəyişdi. Bu dövr Azərbaycan televiziyasının ən ağır dövrü idi. Baş verən olaylar yaradıcı kollektivin fəaliyyətinə, son nəticədə isə ekran vasitəsilə tamaşaçıya mənfi təsir göstərirdi. Bütün bunlar müstəqillik dövrünün başlanğıcında baş verən qarşıdurmaların, siyasi oyunların, eləcə də ayrı-ayrı qüvvələrin televiziyaya təsirindən irəli gəlirdi. Lakin bütün bunlara baxmayaraq, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan televiziyasının fəaliyyətində müsbət dəyişikliklər də müşahidə edilirdi. Ən həlledici məqam isə yenicə şirkətə çevrilən, 90-cı ilin qanlı yanvarını yaşayan, 1991-ci ilin mart qərarının demokratik meylləri ilə istiqamətlənən televiziyada müstəqillik dövrünün ilk ilində atılan addımlarla əlaqədar oldu. Q.Xəlilovdan sonra - yeniliklər dolu 1991-ci ilin sonlarında şirkətə sədr təyin edilən şair-publisist Məmməd Muradın idarəçilik siyasəti və həyata keçirdiyi islahatlar Azərbaycan televiziyasının fəaliyyətində mühüm dəyişikliklərlə nəticələndi. Telejurnalist Q.Məhərrəmli həmin islahatları belə xarakterizə edir[7]:

- şirkətdə ciddi struktur va kadr dəyişikliyi aparıldı;
- ekrana ağırlıq gətirən, sosializm meylli təbliğat-təşviqat xarakteri daşıyan verilişlər dayandırıldı.
- sənaye, kənd təsərrüfatı, tikinti, eləcə də bir çox digər mövzülara həsr olunan 20-30 dəqiqəiik bəsit verilişlərin yerini iri həcmli videokanal formatları tutmağa başladı;
- ekranda diktorları aparıcı-jurnalistlər əvəzlədi;
- televiziya üçün səciyyəvi olmayan redaksiyalar ləğv edilərərək studiya forması yaradıldı.

1991-ci ildə Azərbaycan televiziyasının demokratikləşməsi mərhələsində diktorların aparıcı-jurnalistlərlə əvəzlənməsi prosesi uğursuz eksperiment kimi qısa müddət davam etdi. Lakin bu proses uğurlu başlanğıcın əsasını qoyaraq, gələcəkdə aparıcı peşəsi üçün hazırlıqları

[7] Əlizadə Y., Məhərrəmli Q. Azərbaycan efiri: tarix və müasirlik. Bakı: Nurlan, 2006, s.107-108

zəruri etdi; Azərbaycan televiziyasında az sayda da olsa istedadlı ekran jurnalistlərini ortaya çıxardı. Eyni zamanda tamaşaçı gördü ki, bütün xarici qüsurları ilə yanaşı, jurnalist diktordan daha maraqlı və inandırıcı təsir bağışlayır.

1991-ci ilin oktyabrından etibarən, Azərbaycan televiziyasının efirində “215 KL” studiyasının hazırladığı proqramlar nümayiş etdirilirdi. Müstəqil eksperimental studiya kimi fəaliyyət göstərən “215 KL"-in yaradıcı qrupu aktual məsələlərə obyektiv münasibəti, siyasi mühitin qadağalarından çəkinməyən cəsarətli şərhləri, maraqlı forma və fərqli mövzu seçimi ilə ilk gündən auditoriya arasında rezonans yarada bildi. Həmin ilin noyabr ayının 26-da Azərbaycan televiziyasının efirində bugünkü ANS müstəqil televiziya şirkətinin özülü qoyuldu. “Azərbaycan Nyus Servis” təqdim edir” başlığı altında “Xəbərçi” informasiya buraxılışı efirə çıxmağa başladı. Mirşahin Ağayevin təqdimatında 15 dəqiqə ərzində canlı olaraq yayımlanan proqram kəskin çıxışları, operativ işi, fərqli aparıcı təqdimatı, söz oyunu ilə zəngin yeni üslub vasitəsilə Azərbaycan televiziyasının efirində əsl “demokratiya partlayışı” oldu. Bu dövrdə Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı cəbhədə baş verən olayların televiziyada işıqlandırılması obyektiv şəkildə həyata keçirilmir, bəlkə də, vətəndaşları ruhdan salmamaq üçün bir çox faktlar təhrif edilir, yaxud gizlədilirdi. Xüsusilə, həmin ilin 20 noyabrında televiziyanın doğru olmayan xəbərlərlə auditoriyanı aldatması: böyük bir faciəni – dövlət adamları və jurnalistlərin olduğu vertolyotun erməni silahlıları tərəfindən partladılması faktını xalqdan gizləməsi artıq tamaşaçılarda televiziyaya inamı sarsıtmışdı. Milli azadlıq hərəkatının alovlanmasından çəkinən hökumət televiziyanın məlumatlandırma funksiyasını tamamilə məhdudlaşdırmışdı. Tamaşaçı ekran qarşısında olduğu halda “informasiya blokadası”na salınmışdı. Belə bir gərgin ictimai-siyasi dövr yaşayan Azərbaycan tamaşaçısına dəqiq, qərəzsiz və obyektiv informasiya zəruri idi. Məhz bu dövrdə “hər şeyi olduğu kimi çatdıran” “Xəbərçi” efirə çıxdı. Proqramın informasiya təqdimatı elə ilk gündən fərqlənməyə başladı. Xüsusilə, cəbhə bölgələrindən hazırlanan operativ, analitik informasiya süjetləri reallığı və hadisəliliyi ilə seçildi. Bəzən mətbuatda, eləcə də ANS-in efirində bu televiziya “ilk müstəqil telekanal” adlandırılır və onun yaranışı 1991-ci ildən hesablanır. Lakin nəzərə almaq lazımdır ki, həmin dövrdə “Azərbaycan Nyus Servis” öz yayımını “215 KL” studiyası kimi Azərbaycan televiziyasının efirində, həm də sadəcə bir proqramla həyata keçirirdi. Hətta bəzi vaxtlarda AzTV onun yayımını Rusiya kanallarının

tezliyinə keçirərək, müəyyən zaman kəsiyində efirə təqdim edib. "Azərbaycan Nyus Servis" bu dövrdə hələ telekanal kimi fəaliyyət göstərmirdi. İlk müstəqil telekanal kimi isə 1993-cü ildə BMTİ televiziyası efirə çıxıb. 1992-ci ilin mart ayının 9-da ANS müstəqil yayım və media şirkəti təsis edilsə də, bu televiziya yalnız 1994-cü ildə müstəqil kanal kimi ayrıca tezlikdə yayımlanmağa başlayıb.

Üçüncü fəsil **"Müstəqillik illərinin teleməkanı"** adlanır. İki hissəyə ayrılan bu fəsildə sovet rejimi standartlarından azad, müstəqil televiziyanın formalaşması və onun özəllikləri araşdırılıb. Bu fəslin *"Azərbaycan televiziyasının müasir inkişaf meylləri"* adlanan birinci yarımbaşlığında artıq demokratikləşən Azərbaycan televiziyasının proqram şəbəkəsi -- yeniliklər və özəlliklər geniş şəkildə təhlil olunur. Məsələn, televiziyada ilk türk filmlərinin nümayişi bu dövrə təsadüf edir. Eyni zamanda xüsusi efir təqdimatı olmadan və əvvəlcədən proqramda elan edilməklə xarici filmlərin nümayişi televiziyanın kino yayımında maraqlı bir yenilik kimi diqqəti cəlb edirdi. Çünki o vaxta qədər xarici filmlərə sadəcə "Retro" kinozalında baxmaq mümkün idi.

1992-ci ildən etibarən, ənənəvi 7 may – Radio günü Milli Teleradio günü ilə əvəzləndi. Rus alimi A.Popovun radionu ixtira etdiyi bu tarixi gün digər sovet respublikaları kimi, Azərbaycan tərəfindən də uzun illər boyu əlamətdar bayram kimi qeyd olunmuşdu. Müstəqillik əldə edən Azərbaycanın yerli televiziyası isə öz tarixi bayramını bərpa etdi. 1992-ci ildən etibarən, hər il noyabr ayının 6-ı, yəni Azərbaycan radiosunun ilk efir günü Milli Teleradio günü kimi qeyd edilməyə başlandı. Bu məqam Azərbaycan efiri və ekranı üçün mühüm əhəmiyyət kəsb edirdi. Çünki Azərbaycanda 20-ci əsrin 90-cı illərinə qədər standart bir televiziya vardı: sosializm quruculuğunu təbliğ edən sovet televiziyası. Bu televiziya isə vahid sovet xalqını formalaşdırmağa xidmət göstərirdi. 1992-ci ildən etibarənsə, artıq Azərbaycan televiziyası sovet imperiyasının "əyalət ekranı" yox, müstəqil Azərbaycanın müstəqil televiziyası oldu. Lakin bu dövrdə, yəni ötən əsrin 90-cı illərində yaşanan qeyri-sabit ictimai-siyasi mühit, milli-azadlıq hərəkatının dəyişkən dalğaları və Qarabağ probleminin daha da dərinləşməsi müstəqil qurum kimi yenidən qurulan Azərbaycan televiziyasının inkişaf tarixində ən çətin və uğursuz mərhələ oldu. Cəmiyyətdəki xaos və gərgin şərait televiziyaya da öz təsirini göstərir, onu tənəzzülə aparırdı. Maddi problemlər, televiziya rəhbərliyinin tez-tez və uğursuz olaraq dəyişdirilməsi, eləcə də bütövlükdə respublikanın ictimai-siyasi durumu yaradıcı inkişafa mane olur, texniki bazanın təkmilləşməsi

və zəruri islahatların aparılmasını ləngidirdi. “El-oba” sosioloji tədqiqatlar mərkəzinin 1992-ci ilin iyul ayında keçirdiyi sorğunun nəticələrinə[8] görə, tamaşaçılar televiziyada əsasən vətənpərvərlik, milli adətlər, musiqi və mənəvi-psixoloji mövzularda olan verilişləri görmək istəyirdilər. Sorğuda konkret təkliflər kimi televiziyaya yüksək intellektli jurnalistlərin, xüsusilə müxbirlərin cəlb edilməsi, cəbhə ilə bağlı reportajların ciddi senzuradan keçirilməsi, müstəqil türk dövlətlərinin televiziya proqramlarının müntəzəm nümayişi, eyni zamanda Azərbaycan televiziyasının verilişlərinin də türk dövlətlərinə ötürülməsinin vacibliyi kimi fikirlər vurğulanmışdı. Respondentlər ekranda şəxsi münasibətlərin aydınlaşmasına şərait yaradılması hallarını da pisləmişdilər. Bütün bu qeydlər Azərbaycan televiziyasının tənəzzülə doğru getdiyi bir dövrü – 1992-ci ilin gərgin teleмənzərəsini aydın şəklidə əks etdirir. Bu zaman televiziyanın get-gedə artıq daha da siyasiləşdiyi faktı da özünü göstərirdi. Verilişlərdə müxalifət-iqtidar bölgüsü kimi meylin artdığı kəskin şəkildə müşahidə olunurdu. Bu isə televiziyanın bir çox məqamlarda birtərəfli mövqe tutmasına səbəb olurdu. Nəticədə, Azərbaycan televiziyasının imicinə xələl gəlir, eyni zamanda yaradıcı inkişaf zəifləyirdi. Hər şey ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra stabilləşməyə başladı. Əslində, ilk əvvəl yenə də vəziyyət gərgin idi. 1993-94-cü illərdə - H.Əliyev fəaliyyətə yenicə başlayanda hələ stabillik dövrü başlamamışdı. Müəyyən siyasi qüvvələrlə mübarizənin nəticəsi həmin dövrdə televiziyaya da öz təsirini göstərmiş oldu. Lakin məhz H.Əliyevin uzaqgörənliyi nəticəsində təsir əks - təsirlə nəticələndi. İstər 1993-cü ilin Lənkəran hadisələri, istərsə də 1994-cü ilin oktyabrında dövlət çevrilişinə cəhd və 1995-ci ilin mart qiyamı zamanı dövlətçiliyin qorunmasında televiziyanın əvəzsiz rolu bir daha sübut olundu. “...Mən həmin o oktyabr gecəsi dövlət çevrilişi cəhdi başlanan zaman məhz bizim milli televiziyadan istifadə etdim. Bu, nə qədər güclü silah imiş!" deyən H.Əliyev cəmiyyətin sosial cəhətdən idarə olunmasında televiziyanın rolu və bu rolun düzgün dəyərləndirilməsi məsələsini diqqət mərkəzinə gətirdi. Vətəndaş müharibəsi təhlükəsinin aradan qaldırılması, ölkədə ictimai-siyasi sabitliyin bərqərar edilməsi, ölkə həyatında əsaslı islahatlar aparılması ilə stabillik dövrü sonralar başladı[9].

1994-cü ildən sonra televiziyanın maddi-texniki bazasının yaxşılığa doğru dəyişməsi üçün Heydər Əliyevin göstərdiyi qayğı, yeritdiyi uğurlu

---

[8] “Ekran-efir” qəzeti. 14 avqust, 1992.
[9] www.lib.aliyev-heritage.org/az/9492789.html

kadr siyasəti milli televiziyanın inkişaf meyllərini artırdı. H.Əliyevin hakimiyyətə gəlişi Azərbaycanda televiziyanın fəaliyyəti üçün əsaslı dönüşə səbəb oldu. Ən mühüm cəhətlərdən biri isə respublikada telekanal sayının artması idi. Məhz bu dövrdə Azərbaycanda Dövlət Televiziyasına alternativ olan özəl televiziyalar yaranmağa başladı. Üçüncü fəslin *"Teleməkanda özəl telekanalların yeri və rolu"* adlı ikinci yarımbaşlığında Azərbaycanda müstəqil televiziyaların yaranma şəraiti, ilk telekanallar, onların proqram siyasəti və verilişlər şəbəkəsi araşdırılıb. M.S.Qorbaçovun 1990-cı il iyul ayının 15-də imzaladığı "SSRİ-də televiziyanın demokratikləşdirilməsi və inkişafı haqda" fərman SSRİ dağıldıqdan bir il sonra yaranan müstəqil dövlətlərdə yeni televiziya sahəsinin formalaşması və inkişafına əhəmiyyətli dərəcədə təsir göstərdi. Araşdırmada bu fərmanın müsbət və mənfi tərəfləri göstərilməklə yanaşı, Azərbaycan televiziya məkanında tətbiqinin nəticələri də tədqiq olunub. Dissertasiyada Azərbaycanda ilk müstəqil telekanalın ANS yox, BMTİ televiziyasının olması faktı professor Elşad Quliyevin (BMTİ-nin baş direktoru – B.A.) müsahibəsi və göstərdiyi faktlar, eləcə də ciddi təhlil əsasında öz təsdiqini tapıb. Özəl teleşirkətlərin həm yaradıcı, həm də maliyyə baxımdan azad olması onlara böyük üstünlüklər qazandırdı. Çünki keçid dövrünü yaşayan bir ölkədə maddi maraq öz növbəsində peşəkar fəaliyyətin inkişafı üçün şərait yaradırdı. Televiziyanın kommersiyalaşdırılması hətta dövlət televiziyasına belə büdcədən aldığı maliyyə vəsaiti ilə yanaşı, özünü inkişaf üçün müstəqil şəkildə reklam fəaliyyəti ilə məşğul olmağa imkan verirdi. Lakin bu sahədə gərəkli nəzarətin olmaması televiziya strukturunda tədricən korrupsiyaya yol açdı. Məsələn, ABA telekanalının bağlanması və kanalın bir çox əməkdaşının həbs edilməsi korrupsiya hallarının teleyayımın reklamdan əlavə digər sahələrini, xüsusilə də musiqi yayımını öz təsiri altına salmasından xəbər verirdi. Nəticədə, yaradıcı axtarışlar zəiflədi, maddi cəhətdən stimullaşdırma prosesi istiqamətini tamamilə dəyişdi. Bu isə telekanallardakı proqramlarda sponsor reklamının əsas mövzunu, hətta verilişin mahiyyətini belə üstələməsinə səbəb oldu.

2005-2006-cı illərin telemənzərəsində ictimai-siyasi istiqamətdə ANS-in, bədii sahədə "Space" kanalının, idmanla bağlı proqramlarda "Lider"in, əyləncə verilişlərində isə ATV televiziyasının liderlik etdiyi vurğulanmalıdır. Lakin geniş şəkildə nəzərdən keçirdikdə hazırda bu telekanalların heç birinin müasir televiziyanın tələblərinə cavab vermədiyi aydın görünür. Çünki müstəqil telekanalın inkişafı üçün televiziya işinin peşəkarı olan mütəxəssislərə daha geniş şərait yaradılmalıdır. Bu gün

televiziya sahəsində diletantlar çoxdur. Hazırda ölkədə daha çox ixtisaslaşmış telekanalın (siyasi, uşaq, informasiya, maarifçilik) açılması zəruridir. Çünki artıq respublikada ənənəvi kanallar yetərli qədərdir. Bayağılığın geniş vüsət aldığı bir dövrdə milli və dünya klassikasının təbliği mütləqdir.

Azərbaycan televiziya tarixinin müasir inkişaf mərhələsi davam edir. Bu mərhələ ilk növbədə müstəqil Azərbaycan televiziyasının təşəkkül tapması və özəl telekanalların yaranması ilə səciyyələnir.

Dövlətlərin inkişafı, xalqların mədəni-intellektual səviyyəsinin seçilən göstəricilərindən biri televiziyanın ictimai şüurun və mədəni səviyyənin formalaşmasındakı xidmətləri əvəzsizdir. Milli kütləvi informasiya vasitələri sistemində də Azərbaycan Televiziyasının da özünəməxsus yeri, xüsusi payı vardır. Respublikamızda ilk televiziya olan bu telekanal xalqın dünyagörüşü və bədii-estetik zövqünün formalaşmasında əsaslı rol oynamış, zəngin inkişaf yolu keçərək milyonların tribunasına çevrilmişdi. Azərbaycan radiosu ilə bərabər kütlənin ilk müəllimi olan televiziya sonralar qiyabi xalq universitetlərinə çevrilmiş, ölkənin hər yerində əsas informasiya şəbəkəsi kimi xalqla dövlət arasında körpü rolunu oynamışdır. Azərbaycan televiziyası vətəndaşların arzu və düşüncələrinin, bədii-estetik meyarların və yaradıcılığın kütləviləşməsində təşəbbüskar kimi çıxış etmiş, istedadlı insanların cəmiyyətdə seçilə bilməsinə şərait yaratmışdır. Beləliklə də, milli-mənəvi dəyərləri təbliğ etməklə kollektivçilikdən fərdiliyə, kütləvi əxlaq, xarakter, xalq psixologiyasından milli dirçəliş, oyanış düşüncəsinə keçid prosesi gerçəkləşmişdir. Xüsusilə, 90-cı illərdə müstəqillik ideyalarının kütləviləşməsində bu televiziyanın rolu böyük olmuşdur. Həmin illərdə AzTV kameralarının "Azadlıq" meydanına gəlməsi bütün ölkəyə əsl həqiqətlərin çatdırılması və azadlıq hərəkatının genişlənməsi ilə nəticələnmişdi. Müstəqillik illərində isə Azərbaycan televiziyası yeni cəmiyyət quruculuğu, müstəqilliyin qorunub saxlanılması, itirilən torpaqlarımızın geri qaytarılması istiqamətində ümummilli maraqların müdafiəçisi kimi çıxış edib. Bütün bunları nəzərə alaraq, milli televiziyanın fəaliyyət tarixi və inkişaf mərhələləri dərindən araşdırılmalıdır. Xüsusilə, son 10-15 ildə Azərbaycan televiziyasının zəif fəaliyyəti auditoriya, eləcə də mütəxəssislər tərəfindən bu telekanala münasibəti olduqca aşağı səviyyəyə endirib. Lakin hazırkı dissertasiya bir daha sübut edir ki, Azərbaycanda televiziya məktəbinin əsasını qoyan AzTV-nin fəaliyyətinə birmənalı yanaşmaq düzgün deyil. Bu fikri əsaslandırmaq üçün onun

dünənini bilmək kifayət edər. Çünki bu gün və sabah dünənin üzərində qurulur. Böyük bir zaman kəsiyini əhatə edən həmin vaxt ərzində Azərbaycan televiziyası respublikanın həyatında nə kimi rol oynayıb sualına aşağıdakı cavabları vermək olar:

- Hər bir azərbaycanlıya veriliş, proqram, televiziya filmi, eləcə də rejissor, operator, işıqçı, diktor, şərhçi, yaxud ansambl və orkestrin nə olduğunu öyrədib; skripka, kontrabas, piano, saksafon, kanon kimi musiqi alətlərini ən sadə vətəndaşa da tanıdıb;
- Azərbaycan filmlərini tamaşaçıya tanıdıb və sevdirib. Eyni zamanda sovetlər miqyasında çəkilən ən maraqlı və sanballı filmləri öz seyrçisinə təqdim edib;
- Bütün bunlardan əlavə, bu televiziyanın arxivində böyük kino salnaməsi mövcuddur. Bura isə təkcə bədii və sənədli filmlər deyil, eyni zamanda TV-nin özünün istehsal etdiyi telefilmlər, müəyyən tarixi dövrləri əks etdirən verilişlər, ölkə əhəmiyyətli tədbirlərin lent yazıları da daxildir;
- Bugünkü Azərbaycanın mədəniyyətinin aparıcı simalarının əksəriyyəti AzTV-də çalışıb. Beləliklə də, televiziya təkcə efir məkanı üçün deyil, ədəbiyyat və mədəniyyət üçün də əsaslı baza rolunu oynayıb;
- Müasir dövrdə fəaliyyət göstərən özəl telekanalların demək olar ki, hamısı "AzTV-nin şineli"ndən çıxıb. Bu kanal minlərlə adamın sənət - səhnə taleyində müstəsna rol oynayıb;

Nəhayət, Azərbaycanın ictimai-siyasi həyatı ayrılmaz tellərlə bu televiziyanın fəaliyyəti ilə bağlı olub. Milli televiziya özünün bütün mərhələlərində Azərbaycan cəmiyyətinin bu və digər şəkildə aynası olub. Bu mənada Azərbaycan televiziyasının inkişaf mərhələləri həm də Azərbaycan tarixinin dəyişən səhifələriylə əvəzlənib. Bir sözlə, AzTV-nin yaranması və fəaliyyəti bizim tariximizdir, Azərbaycan tarixinin, dövlətçiliyinin tərkib hissəsidir.

Beləliklə, Azərbaycan televiziyası öz inkişafında 3 zəruri və məntiqi mərhələdən keçib:

a) Təşəkkül dövrü (1956-1960-cı illər). Bu mərhələdə Azərbaycan sovet televiziyası formalaşıb;

- ilk televiziya verilişləri yayımlanıb;
- daha çox texniki vasitə kimi yaranan televiziyanın əsas mahiyyəti özünü göstərməyə başlayıb. "Ev kinosu" kimi fəaliyyətə başlayan televiziyada tədricən mühüm əhəmiyyət kəsb edən publisistik verilişlər təşəkkül tapıb;
- İlk studiyadan kənar verilişlər yayımlanıb;

- İlk diktorlar efirə çıxıb;
- Struktur dəyişikliyi nəticəsində radioinformasiya idarəsiylə birləşdirilən televziya komitəyə çevrilib.

Televiziyanın inkişafındakı birinci mərhələ üçün ən dəyərli fakt, ümumiyyətlə, televiziyanın açılması hesab olunur. Vaxtilə kinonun daşıdığı funksiyaları bu dövrdə artıq televiziya öz üzərinə götürüb. Daha çox ideoloji rupor rolunu oynayan televiziya ilk gündən ictimai fikrin formalaşmasında böyük rol oynayıb.

b) Təkamül dövrü (1960-1990-ci illər). Bu mərhələdə televiziya bir KİV kimi özünü təsdiqləyib;

- Maddi-texniki bazası təkmilləşən televiziyada yaradıcılıq təcrübəsi də zənginləşib;
- Televiziya proqramlarının rəngli yayımı başlanıb, yeni texnologiya tətbiq edilib;
- Televiziyanın məlumatlandırma funksiyası genişlənib; informasiya proqramları, eləcə də ictimai-siyasi və publisistik verilişlər inkişaf edib;
- Televiziyada ilk bədii film çəkilib, sənədli film istehsalının yüksəliş dövrü qeydə alınıb, kütləvi proqramlar, iri həcmli tamaşalar hazırlanaraq efirə verilib;
- Kəmiyyət və keyfiyyət cəhətdən paralel inkişaf edən verilişlər kütləvi şəkildə televiziyalıq xüsusiyyəti kəsb etməyə başlayıb.

İkinci mərhələdə bütün ideoloji təzyiqlərə baxmayaraq, Azərbaycan televiziyası həm yaradıcı, həm də texniki baxımdan kifayət qədər inkişaf edərək, fəaliyyətinin “qızıl dövrü”nə qədəm qoydu. Ən önəmlisi isə bu mərhələdə formlaşan zəmin əsasında növbəti – üçüncü mərhələdə vahid sovet televiziyası müstəqil Azərbaycan telekanallarıyla əvəzlənə bildi.

c) Müasir dövr (1990-cı ildən etibarən). Bu mərhələdə müstəqil Azərbaycan televiziyası təşəkkül tapıb;

- Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin statusu dəyişdirilərək şirkətə çevrilib;
- Verilişlərdə azad fikir, siyasi plüralizm, aktual müzakirələr meydana çıxıb, televiziyanın cəmiyyətin həyatına müdaxiləsi genişlənib;
- Texnika ilə yanaşı, televiziya janrları və proqram formatlarının inkişafı və dövrə uyğun olaraq, yeniləşməsi baş verib;
- Azərbaycan televiziyasının beynəlxalq əlaqələri genişlənib;
- Televiziya jurnalistləri diktorları əvəzləməyə başlayıb;

- Vahid televiziya anlayışına son qoyulub, özəl televiziyalar yaranıb.

Beləliklə, tarixi zərurətdən sovet televiziyası kimi yaranıb inkişaf edən Azərbaycan televiziyası müasir dövrdə müstəqil fəaliyyət göstərir. Yaşadığımız cəmiyyət kimi, Azərbaycan televiziyası da öz simasını dəyişib. Əgər ötən illərdə ekran SSRİ-nin ideoloji ruporu rolunu oynayır və bir mərkəzdən idarə olunurdusa, indi müstəqil Azərbaycanın milli dövlətçilik ideologiyasının daşıyıcısıdır. Təşəkkül və təkamül mərhələlərini əhatə edən sovet dövründə televiziya zəhmətkeşlərin sosializm və kommunizm quruculuğu vəzifələrinin yerinə yetirilməsinə səfərbər olunması, partiya qurultaylarının qərar və materiallarının geniş təbliği, eləcə də, əhalinin siyasi, mədəni və estetik tərbiyəsi üçün çalışıb. Bununla belə, həmin illərdə televiziya tariximizin, mədəniyyətimizin salnaməsini də yaradıb. Müasir müstəqillik şəraitində isə informasiya əldə etmək və onu sərfəli istiqamətlərdə yaymaq sahəsində birinciliyə sahib olmaq uğrunda, yerli telekanallar arasında rəqabət gedir. Rəngarəng proqramları ilə insanları düşündürmək, maarifləndirmək, tərbiyələndirmək, əyləndirmək, zərurət yarandıqda isə həm də səfərbər etmək imkanına malik olan televiziyalar öz auditoriyası üçün mübarizə aparır. Əlbəttə, həyatın güzgüsü, günümüzün şəkilli salnaməsi olan televiziya ağıllı və məntiqli düşünə bilən tamaşaçını bir həmsöhbət kimi yəqin ki, heç vaxt axıra qədər təmin edə bilməyəcək. Bu informasiya, əyləncə, tədris və təbliğat vasitəsinin söhbəti öz mübahisələri, iddiaları, mülahizələri, eksperimentləri, eləcə də səhvləri ilə maraqlıdır. Elə bu səbəbdən də televiziyanın fəaliyyət tarixi və inkişaf mərhələləri zaman keçdikcə bir daha, həm də yeni nöqteyi-nəzərdən araşdırılmağı tələb edir.

**Dissertasiya mövzusuna dair müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur.**

1. Azərbaycan televiziyası tarixi araşdırmalarda. BDU. Heydər Əliyevin jurnalistika dərsləri. Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli jurnalistika: tarix, ənənə, müasirlik. (H.Əliyevin anadan olmasının 85 və AXC-nin 90 illik yubileylərinə həsr olunmuş elmi-praktik konfransın materialları), Bakı, 2008, səh. 118-127.
2. Azərbaycan televiziyasının inkişaf mərhələləri. Dil və ədəbiyyat, № 1 (61), Bakı, 2008, səh. 215-217.
3. Azərbaycan teleməkanında özəl telekanallar. Dil və ədəbiyyat, № 1 (67), Bakı, 2009, səh. 257-259.

4. Azərbaycan televiziyasının ilk proqramları. BSU. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblər arası elmi məqalələr məcmuəsi, № 2, Bakı, 2009, səh. 307-314.

5. Азербайджанское телевидение в 70-е годы XX века. Журнал научных публикаций аспирантов и докторантов. № 4, Курск, 2009, стр. 75-79.

6. Milli özünüdərk prosesində televiziyanın rolu. Azərbaycan xalqının milli özünütəsdiqində ədəbiyyat və mədəniyyətin yeri. Beynəlxalq konfransın materialları. Bakı, "Elm" nəşriyyatı, 2010, səh 267-270.

**Асланова Биллура Аслан гызы**

# ЭТАПЫ РАЗВИТИЯ ТЕЛЕВИДЕНИЯ В АЗЕРБАЙДЖАНЕ

## РЕЗЮМЕ

Диссертация посвящена изучению этапов развития телевидения в Азербайджане. В работе делаются попытки охватить пятидесятилетний период развития телевидения (1956-2006) в Азербайджане.

Диссертация состоит из введения, трех глав, заключения и списка литературы.

Введение содержит актуальность темы, цель и задачи исследования, научную новизну, научно-теоретическое и практическое значение, апробацию и структуру исследования.

В первой главе под названием "Формирование телевидения в Азербайджане» исследуется история образования и развития телевидения. Глава состоит из трех параграфов. В этой главе отмечается, что в странах Южного Кавказа и среди туркоязычных государств впервые телевидение был открыт в Азербайджане. Здесь анализируется особенности развития телевидения: описываются этапы и уровень его развития, прослеживается создание первых телевизионных передач, формирование творческого коллектива, исследуется проблемы, возникающие в первые годы телевидения.

Вторая глава называется «Особенности развития телевидения в Азербайджане». Глава состоит из трех параграфов. В этой главе описываются конкретные особенности сети программ, творческие и технические разработки Азербайджанского ТВ в 70-90-х годов. Здесь прослеживается постоянные изменения, происходящие в телевидении, показывается пути совершенствования развития телевидения.

Третья глава называется «Телевещание в годы независимости". Глава состоит из двух параграфов. Здесь анализируется один из самых важных особенностей истории развития телевидения в Азербайджане - процесс демократизации в телевидении. Описывается процесс формирования независимых телеканалов, исторические условия данного процесса, программная политика.

В заключении подводятся итоги исследования: обобщаются основные идеи и определяются ведущие тезисы.

Список литературы содержит перечень работ, используемых автором.

**Aslanova Billura Aslan gizi**

## STAGES OF DEVELOPMENT OF AZERBAIJAN TV

## SUMMARY

The dissertation is titled “Stages of development of television in Azerbaijan”. The author investigates the fifty-year period (1956- 2006) of development of television in Azerbaijan.

The dissertation consists of introduction, three chapters, conclusion and list of literature.

The introductory part includes background, groundedness, aim and objectives of the research, its scientific novelty, theoretical and methodological foundations, as well as scientific-theoretical and practical significance, testing, structure of the research.

The first chapter is titled as “The formation of television in Azerbaijan”. The chapter consists of three paragraphs. The author notes that among the South Caucasian and Turkic states for the first time television was opened in Azerbaijan. She analyzes peculiarities of development of television in Azerbaijan and presents stages and level of its development: traces the creation of the first television programs, the formation of the creative team, examines emerging issues in the early years of television.

The second chapter is titled as “The peculiarities of development of television in Azerbaijan”. The chapter consists of three paragraphs. The author gives specific features of program network, creative and technical development of Azerbaijani TV in 70-90’s. She reveals a connection between history of the society and constantly changed and improved way of development of the television.

The third chapter is titled as “TV broadcasiting under Independence’s years”. The chapter consists of two paragraphs. The author analyzes one of the most important features of the history of development of the television in Azerbaijan- process of democratization in the television, formation of free and independent TV programs. In the final part of the third chapter the author shows the process of formation of independent TV channels, historic conditions of the given process, program policy.

In the conclusion of the research the author gives summary of the main new ideas she reached in the dissertation.

The refence of the dissertation contains list of works used by the author.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**БИЛЛУРА АСЛАН гызы АСЛАНОВА**

# ЭТАПЫ РАЗВИТИЯ ТЕЛЕВИДЕНИЯ В АЗЕРБАЙДЖАНЕ

**5720.01- Журналистика**

## АВТОРЕФЕРАТ

**Диссертации на соискание научной степени
доктора философии по филологии**

**БАКУ – 2015**

**Kağız formatı 60x84 1\16**

**"Bakı Universiteti" nəşriyyatı**
**Bakı ş., AZ 1148, Z.Xəlilov küçəsi, 23**